*YAPONIYANIN AZƏRBAYCANDAKI SƏFIRLIYI*

Hyatt Tower 3, 6-cı mərtəbə
Izmir küç. 1033, Bakı

28 yanvar, 2009-cu il

# *Mətbuat üçün Məlumat*

## ***Yaponiya Hökumətinin 2 KR proqramı çərçivəsində 3.398 milyon ABŞ dolları (350 milyon Yapon yeni) məbləğində "Aztəminatlı fermerlərə Qrant Yardımı" layihəsi üzrə Notalar mübadiləsi sənədlərinin imzalanması mərasiminin keçirilməsi***

30 yanvar 2009-cu il tarixdə saat 16:00-də Azərbaycan Respublikası Kənd Təsərrüfat Nazirliyinin binasında Yaponiya Hökumətinin 2 KR proqramı çərçivəsində **3.398 milyon ABŞ dolları** (**350 milyon Yapon yeni)** məbləğində "Aztəminatlı fermerlərə Qrant Yardımı" layihəsi üzrə Notalar mübadiləsi sənədlərinin imzalanması mərasimi keçiriləcəkdir.

Sənədləri Yaponiya tərəfindən Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri Zati-aliləri cənab Masamitsu Oki, Azərbaycan Hökuməti tərəfindən isə Azərbaycan Respublikası Kənd Təsərrüfat Naziri Zati–aliləri cənab İsmət Abasov imzalayacaqdır.

"Aztəminatlı fermerlərə Qrant Yardımı Proqramı" çərçivəsində Yaponiya Hökuməti ərzaq istehsalını təkmilləşdirmək məqsədi ilə yardım alan ölkələrə gübrə idxalı və lazımı kənd təsərrüfat avadanlığının alınması üçün mailiyə yardımı göstərir. Bu vasitə ilə alınan gübrə və kənd təsərrüfatı avadanlıqlarının ölkə daxilində istifadəsindən əldə olunan gəlir tərəfdaşlıq fondunda yığılır və ölkədə kasıbçılığın azaldılması kimi layihələrdə istifadə olunur. Bu proqramın əsas məqsədi aztəminatlı fermerlərə dəstək verməkdir. Sözügedən Proqram ilk dəfə 1977-ci ildə Yaponiya Hökuməti tərəfindən təqdim olunmuşdur.

1998-ci ildən etibarən Yaponiya Hökuməti Azərbaycanda indiki layihə də daxil olmaqla 2KR Proqramı çərçivəsində Aztəminatlı fermerlərə ümumi dəyəri **26.78 milyon ABŞ** dolları olan 8 Qrant Yardımı layihəsi həyata keçirmişdir. Bu proqram çərçivəsində indiyə qədər 232 ədəd taxılyığan kombayn, 212 ədəd traktor, 139 toxum səpən maşın, 186 ədəd qoşqu və 20 ədəd kotan alınmışdır.

Yaponiyanın Azərbaycana ayırdığı Rəsmi İnkişaf Yardımı iqtisadi infrastrukturun yaxşılaşdırılması, kənd təsərrüfatı, sosial sahə, mədəniyyət və insan resurslarının inkişafı kimi geniş sahələri əhatə etməklə ümumi məbləği təqribən **730 milyon ABŞ dolları** təşkil etmişdir.

***Yaponiya Səfirliyində Leyla Hacızadə ilə aşağıdakı nömrələr vasitəsilə əlaqə saxlaya bilərsiniz:***

***490 78 18/490 78 19; Fax: 490 78 20***